Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№13 (3352) 15 Aprel / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru





*Şairə Lətafət ƏMİROVA*
*Özbəkistan Respublikası*

# DƏLİ

Aşiq mənəmg Eşqlə doğuldumg
Qəlbim alov... Bədən ələnqə.
Mən özümü sevgiyə gömdüm,
Bürüməyin indi kəfənə.

Məşuq mənəmg Hər dəfə sərhoş,
Onun adın şərabtək içdi.
Baxışına sığındım hər dəfə,
Ayağına yıxıldımg Öpdümg

Derviş mənəmg Məkansiz... Yersiz...
Ürək tikdim! Ona gizləndim.
Biri satdı məni bəlkə də,
Qəlbdən çıxdımg Sevdim, qırıldım.

Məğlub mənəmg Və qalib mənəmg
Çox qazandım, çoxca uduzdum.
Bisatimda - ürəyim idig
Mən onu da sənə tutdurdum!

# UNUTAMAZSAN

*İllər keçəcəktir, keçir mövsümlər,*
*Taqdir deyəməzsən, yox,*
*qəbul etəməzsən.*
*Əlindən də gəlməz, ürək ağrıyır,*
*Məni unutmazsan, unutamazsan.*

*Qucaqlarsan dizini,*
*kirpik tərpədəməzsən,*
*Göyə baxarsan,*
*heç öyrəşə bilməzsən,*
*Gözündən yaş süzər,*
*xəyal dizginsiz,*
*Məni unutmazsan, unutamazsan.*

*Keçmişi düşünür, məni axtarırsan,*
*Xəyal ağacını yıxa bilməzsən,*
*Təəssüf, qayıdamazsan,*
*qayıda bilməzsən,*
*Məni unutmazsan, unutamazsan!*

*Yuxuların dalaşır adım çağıraraq,*
*Günlərin səhv düşür izimdən gələrək,*
*Bağışla, qəlbini geri verəmədim,*
*Məni unutmazsan, unutamazsan!*

**Özbək dilindən tərcümə etdi:**
**Rəhmət Babacan**